www.achiq.org

# Firqə və dövlətin məsələləri haqqında Mərkəzi komitənin ümumi iclasında

### Mərkəzi komıtənin keçmiş ümumi iclası nə şərait altında toplanmışdı?

**Mərkəzi komitənin keçən ümumi iclası ağır bir vəziyətdə təşkil olunmuşdu. O vaxt kəndlilər və firqə şö'bələri jandarm cəlladları vasitəsilə böyük təzyiq və fişarlara mə'ruz qalmış idi. Gündə yüzlərcə kəndli jandarm zulumundan fərar edib firqə komitəsinə pənah gətirir oradan imdad və kömək tələb edirdilər. Zindanlar cürbəcür bahanalar üzrə tövqif edilən kəndlilərilə doldurulmuşdu. Biləxərə bütün dövlət dəstgahı bizim milli hərəkatımızı boğmaq üçün ayağa qalxmışdı. Tehran höküməti firqə təşkilatını məhv etmək, firqəmizin rəhbərlərini öldürüb meydandan çıxarmaqdan ötrü var qüvvəsilə çalışır və bu yolda heç bir cinayətdən çəkinmək istəmirdi.**

**Fədai dəstələri taza təşkil olmağa başlamışdı. Bugün böyük bir qüdrətə malık olub Tehran murtəcelərinin canlarını lərzəyə salan bu milli qüvvə taza ayaqtutmaqda idi. Hətta bu iş o qədər kiçik, o qədər sadə idi ki, biz cürət edib mərkəzi komitə iclasında o xususda geniş mə'lumat verə bilmədik. Bonunlabelə keçmiş ümumi iclas tarixi bir iclas idi. İclasda firqə özünün qtə'i sözünü deyib difa'dan həmləyə keçmək fərmanı sadır etdi. İftixarilə deyəbilərəm ki, o cəlsədə firqənin mənə olan təvəccehinə və etmadına dayanıb ümumi iclasa milli mübarızəmizədə yeni bir dövrə başlandığını e`lam etdim,arzularımızın yaxınlaşdığını söylədim. Əgər fəramuş etməmiş olsuz o gün mən açıq surətdə dedim ki, artıq mudafıə dövrəsi keçmişdir. İndi biz dağın qulləsinə çatmışıq məqsəd və hədəfimiz gözümüzün önündədir. Fədai qüvvələri artıq jandarmların cinayətlərinə xatimə vermək üçün işə başlamış, kəndliyə intqamçəkmək icazəsi verilmişdir. O gün firqə və milli hərəkat böyük xətər qarşısında idi. Azərbaycanın mühümm şəhər və nizamı məntəqələrində tehran irtcai dövlətin cinayətamız əmrlərini icra edən nizamı qüvvələr bizim hərəkatımızı boğmaq fərmanı almışdı.**

**Təbriz, Ərdəbil, Urmu,Miyandab,Şahindəj və sayir nuqtələrdə müntəzəm qoşun hissələri bizə nisbət xəsmanə mövqe tutmuş sərtib Dirəxşani, sərhəng Vərəhram, sərhəng Zəngənə tipləri ölkəmizi qan və atəş dəryasında qərq etməyə müsəmməm olmuşlardı. Belə bir qoymaqda mərkəzi komitəmizin ümumi iclası bizə həmlə fərmanı verdi və milli azadlıq mübarızəsinin başlanmasını bütün firqə əfradına e'lam etdi. Bunilə firqə səflərində hərbi iş başlandı. Təşkilatın bütün sağlam üzvləri silaha sarılıb fədai dəstələrinin çərdəgini və rişəsini təşkil verdi. Bütün xalq mərkəzi komitənin ümumi iclasının açıq təsmimi üzrə hərəkətə gəldi, ayağa qalxdı, milli arzularını həyata keçirməyə başladı.**

### Fədai dəstələrinin təşkili

Fədai dəstələrinin barəsində mütəəssifanə bu vaxtadək çox az eşidilmişdir. Bu təşkilatın təfsili milli tariximizin ən şanlı səhifələrindən birini vucuda gətirmişdir. Fədai təşkilatı çox təbii bir surətdə xalq hərəkatından doğmuşdur. Kəndlərdən intiqam almaq qəsdilə meydana çıxan bu cərəyanda firqə təşkilatlarının göstərdikləri fədakarlığı inkar etməyə luzum yoxdur. Doğrudur kəndlı jandarm zülmündən cana doyub onun şərrini dəf' etmək üçün silah əldə mübarizəyə qiyam etmişdi, lakin onu təşkil edən, onun başında duran, onu düzgün hədfə sövq edən firqəmizin yerli təşkilatlarının tərtib etdiyi qəhrəmanlar olmuşdur.

Mən e'tiraf edirəm ki, fədai hərəkatında böyük nüqsanlar da olmamış deyildir. Çox yerlərdə yabançı və kəsif ünsürlər də bu müqəddəs addan sui istifadə etməyə çalışmamış olmamışlar. Bə'zi yerlərdə gecə - gündüz yoxusuz və ac qalan fədai qüvvələrinə kömək yetirmək qəsdilə əhali tərəfindən davtələbanə köməklər də olmuş hətta anbar dağıtmaq və ya bə'zi ərbabların atlarını müvqqti olaraq tutmaq da nəzərə çatmışdır. Lakin Bonun ümumiyyəti yoxdur. Ümumiyyətlə fədailər çox yerdə ac və möhtac olduqları halda xalqın malına tamah etməmiş, özlərini dünyamalından biniyaz göstərmişlər.

Bizim firqə komitəsində bə'zi fədailərin yararlıq göstərmələri və pak rəftarları haqqında elə mə'lumatlar var ki, ayrı mövqe'də ona inanmaq belə ola bilməz. Ac, yoxsul fədailərin əllərinə keçən külli miqdarda nəqd pulları gətirib dövlət idarələrinə vermələri nadir ittifaq düşənl hadisələrdən deyildirmi?

Bonunla belə indi artıq fədai təşkilatının öz vəzifəsini əncam verdiyini qeyd etəməliyik.

İndi çox yerdə fədai başçılarının öz vəzifələrindən xaric olmaları da muşahidə edilməkdedir. Milli Hökümət çox tez bir qoymaqda milli qoşun yaratmaq işinə şuru' etdikdən sonra bu işin qabağı tezlikilə alınacaqdır və bu tə'ssufli nüqsan da rəf' olacaqdır. Bu vasitəilə fədailərin bir qismi ölkənin əmniyyətini hifz etmək üçün nəzmyyə təşkilatına keçəcəkdir.

Jandarm təşkilatının usulən qələt və azadlıq əleyhinə qurulduğunu nəzərə alaraq Milli Hökümət bu təşkilatı təmamilə məhv etmişdir. Jandarm istər Rizaxan zmanı, istər onun suqutundan sonra kəndliləri zülüm və əsarət altında saxlamaq üçün cəllad rolu oynamışdır.

Qanuni bir məmləkətdə daxili əmniyyət qeirnizamı bir təşkilat olan daxilə vizartənə tapşırılar. Dər vaqe' jandarm və ya nəzmiyyə mə'murları ədliyyənin intizamat mə'mürları sayılar. Bizdə isə Bonun əksinə olaraq jandarm mustəqıl nizamı bir təşkilat olmaq üzrə vizərti cəngə tabe` tutulur ya müstqimən diktatorların iradəsilə məmləkəti qarət etmək üçün onun fasıd niyyətini mövqe' icraya qoyardı.

Biz artıq bu təşkilatı bir dəfəlik öldürüb elə dəfn etəməliyik ki, birdaha xortlayıb ayağa dura bilməsin. Onun yerində isə daxilə vizarətinin şö'bəsi olan nəzmiyyə təşkilatı qurulur, gərək şəhərlərdə olduğu kimi kəndlərin əmiyyəti də onun öhdəsinə mühol edilsin. Bu nəzər elədir ki, yerli fədailərdən sağlam bir hissəsini istixdam edib vizarət daxilənin ixtiyarına qoymaq lazımgəlir. Fədailərin qalan hissəsi isə ya qoşona alınacaq, ya murur qoymaqilə öz xüsusi işlərinə qayıdacaqlar. Bu vasitəilə istər kənd, istər isə şəhərlərdə vəziyyət adı hala düşəcəkdir.

Biz fədai təşkilatına başladığımız zaman Milli Höküməti yaratmaq üçün cürbəcür pişnahadlar var idi. Bə'zi firqə üzvləri müəyyən bir gündə qiyam edib dövlət idarələrini tutmaq, qoşun hissələrini silah guciilə darmadağın etməyi pişnahad edirdilər. Bə'ziləri isə Tehrana təlqraf vurmaq kuçə və xiabanlarda böyük nümayiş və mitinqlər təşkil etmək yolilə bu böyük məqsədin ələ gətirməyini mümkün sayırdılar. Həttə bundan ollki ümumi iclasadək bizim bə'zi firqə üzvlərimiz mərkəzi komitəni mühafizəkarlıqda muttəhəm edib deyirdilər mitinq və numayiş olmadığına görə firqə üzvləri ruhdan düşüb, mə'yus olmağa başlamışlar. Əgər tez bir zamanda təzahür və numayışlərə başlamasaq irtica' bizim təşkilatımızı tamamilə munhəll edəcək və bəsatımızı pozacaqdır. Hələ mərkəzi komitənin özündə bədbinlik gündən günə artıb və ciddi firqə üzvlərindən bizim kəndlini başına buraxıb onun dərdinə yetişmək istəmədiyimizi üzümüzə vurur və oyunu uduzduğumuzu söiləyib dururlardı.

Bu narazılığa baxmayaraq biz fədai dəstələrinin quruluşona böyük umud bağlayıb işın içərisindən xəbəri olmayan firqə üzvlərinin acı sözlərin udub öz işimizə dəvam edirdik. Biz o gün his etmişdik ki, xalq bizimlədir. O bizim ardımızca gedəcəkdir. Lakin əgər biz əcələ edib təzhürə başlasaq ya mitinq və numayişilə düşməni ayıq salsaq onda o hərc-mərc və şuluxluq yaratmağı bahana edib hərəkatın qabağını alar, nəticədə xalq mər'ub və ya mə'yus olub arxamızdan çəkilər. Ona görə acı tənqidlər və şədid təərrüzlrə baxmayıb kəmal xunsərdlikilə xalqı təşkil edib, fədai dəstələri firqənin inanılmış adamlarının rəhbərliyi altına çəkməyə çalışırdıq. Nəhayət hərəkət xalq içərisindən başlayıb bütün ölkəni bürüyüb Tehran irtica'ının qoşun qalalarını üzüyün qaşı kimi mühasirəyə alıb milli qüdrətimizin qabağında diz çökməyə məcbur etdi.

## Dövlət quruluşu haqqında

Bizim milli dövlət quruluşi haqqında götürdüyümüz qədəmlərin sürə'ti dünya tarıxində az görülən ittifaqlardandır. Əgər inqilab və kudeta təriqilə işə başlanılmış olsaydı şayəd bizim sərf etdiyimiz müddət az nəzərə gələmyəidi. Söz burasındadırkı, biz tam mə'nasilə təşkilat yolilə işi qabaqdan aparmağa müvəffəq olmuşuq. Bu yolda düşünüb tərtib verdiyimiz xalq iclaslarının böyük köməyi olduğunu qeyd etəməliyik. Mitinqlər və olarda tuplanan imzalar sübut etdi ki, xalqın ürəyi bizimlədir, istədiyimiz vaxt ümum millət ayağa qalxıb bizim ardımızca gləcəkdir.

İki həftə hazırlıq gecəsində müəyyən bir gündə Azərbaycan kənd və şəhərlərində təşkil tapan bu mitinqlər firqənin böyük yaradıcılıq qüdrətinə malik olduğunu da isbat etdi. Bu mitinqlərin parçalar üzərində çıxartdığı qərarlarda yüz minlərdən mütcaviz imza vardır ki, bunlar Azərbaycan milli muzəsinin ən dəyərli əsnadı hesab olonacaqdır.

İnanın ki, əgər xalqın təvəcceh və rəğbəti olmasaydı bu qədər imzanı az müddtdə toplamaq olmazdı. Bundan başqa mitinqlərdə şirkət edənlərin sayı milyonlara balığ olmuş bu təriqilə milli azadlıq şüarımız ümum xalq tərəfindən meydana atılmışıdı. Firqə və mərkəzi komitəmiz bu böyük və tarixi işilə həmişə iftixar edəcəkdir.

Mitinqlərdən sonra bilafasilə böyük milli konqrənin təşkili və onun özunu Məclıs Müssisan adlandırması da tarixi bir işdir.

Bildiyiniz üzrə bu konqrədə yeddi yüzdən əlavə nümaində iştirak etmişdir. Bu, təşkilatçılıq nüqteyinəzərindən şayan diqqətdir. Bütün Azərbaycanın dərin guşələrindən nümayəndələr toplayıb milli konqrə təşkil vermək deməkilə qurtaran işlərdən deyildir. Burada böyük təşkilatçılıq və şədid bir intizam hökm sürmüşdür.

Firqənin fə`al və qəhrəman üzvləri bu yolda böyük fədakarlıq edib insanqüvəsindən ziyadə yararlıq göstərmişlər. Konqrənin qərarları isə fövqəladə mühümm,fövqəladə qiymətlidir. Burada milli dövlətimizin əsası qurulub Məclis Milli  və Milli Hökümət şüarı meydana atilmaqla fövrən mövqeye icrayə qoyulmuşdur. Bir birini az tanıyan yeddi yüz nəfəri biri birinə bağlayan əcəba millətin iradə və arzusı deyildir, nədir?

Konqrənin gedişi fövqaladə mətin və münəzzəm olduğu halda onu nçıxardığı qərarlar da fövqəladə mə’nalıdır. Konqrə milli dövlətimizin əsasını qurduqdan sonra onu bütün dünyaya tanıtmaq üçün verdiyi tarixi e`lamiyyə də şayan əhəmmiyyətdir. Biz bu deklarasionu İran Məclis Millisinə və şaha da itmam höccət qəsdilə göndərdik ki, bəlkə ləcacət daşını ətəklərindən tökübbizim haqq və azadlığımızı təsdiq etsinlər. Lakin həmişə olduğu kimi hər növ azadlığa muxalıfət göstərən Tehran irticaı gözünü açıb həqiqəti görməkdən aciz qaldı və elamiyyəmizə cəvab vermək əvəzində rəis dövlət vasitəsilə bizim başçılarımızı macəracu adlandırıb hərəkətimizi silah gücüilə boğmaqla  təhdid etdi. Bizim üçün ayrı bir yol yox idi. Tehransız öz tutduğumuz işi axırayetirməli, öz milli azadlığımızı tə’min etəməli idik. Onun üçün cəvaba müntəzır olmadan üçüncü böyük qədəmi götürüb Məclis Milli intixabatına başladıq. Bu, firqə və millət üçün böyük imtahan idi. Bu imtahandan firqə və xalqımız başıuca çıxdı. Təhdid və tətmi' olmadan keçirilən məclis seçgilərində müdəttın azlığı və firqənin hazırlıq vaxti olmadığına baxmayaraq yüz minlərlə əhali şirkət etdi. Rə’y verənlərin sayı bə’zi yerlərdə yüz qat qabaqkı seçgilərdən artıq oldu. Bütün xalq təbəqə və sinif nəzərdə olmadan öz rə’yini verməklə şüarlarımızı qəbul etdiyini göstərdi. Ana və bacılarımızın intixabatda şirkəti millətimizin vəhdətini və müasır bir millət olduğunu isbat etdi. Nəhayət, arzu etdiyimiz Məclis Millimizin iftitahıilə Milli Hökümətimiz təşkil tapdı. Məclisimizin birinci dövrə iclasiyyəsi Təbriz şəhərində olan qoşun hissələrinin təslimi və idarələrin Milli Hökümət ixtiyarına keçməsilə böyük bayram şəkli aldı.

Məclis Millimiz birinci dövrə iclasında mə’nalı qərarlar çıxardı, az bir müddətdə çoxlu qanun layihələri qəbul edib milli dövlətimizin binasını möhkəmləndirdi və özünün daxili nizamnaməsini mutalı'ə və təsdiq etdi. Əlbəttə mclis Azərbaycan üçün sabiqəsiz bir təşkilat idi. Bu təşkilat get - gedə təkmil olunub daha münəzzəm şəkilə duşəcəkdir. Tə'cili bir surətdə tənzim əolonan qanun layihələrimiz nüqsansız ola bilməz. Lakin çox tez bir zamanda iş cərəyana düşüb adi yolunu tapmaqla bütün nəvaqisimiz rəf' olonacaqdır.

## Milli Hökümət və onun tə'qib etdiyi əsas məsələlər

Milli Hökümət təşkil tapan gün özünün bərənaməsini Məclis Milliyə təqdim etdi. Bu proqram firqənin o günə dək müntəşır və təbliğ etdiyi şüarlar üzərində tənzim olunmuş idi. Orada birinci növbədə dövlət quruluşu və dövlət təşkilatının xalqa yaxınlaşması, çürüyüb fasid

olmuş keçmiş dövlət dəstgahının pozulub demokratik əsaslar üzərində qurulması qeyd edilmişdi. Bu isə fəqət əncümənlər təşkiliilə mümkün ola bilərdi. Ona görə əsasi islahatdan sonra bu işə iqdam olundu. Ümidvarıq bu ayın iyirmisinə dək bütün Azərbaycanda bölük, mahal və vilayət əncümənlərinin təşkilinə müvəffəq olabilək. Bu, çox mə'nalı və çox böyük bir işdir. Bu vasitəilə xalq hökümətdə müstəqimən şirkət edib dövlət mə'murlarının işlərini nəzarət altına alabiləcəkdir. Bundan əlavə əncümənlərin xalqa siyasi tərbiyə və siyasi rüşd vermək cəhətdən böyük qiyməti vardır. Bölük əncümənlərindən sonra kəndistan əncümənlərinin təşkili məsələsi meydana çıxır ki, bu da bir qədər mutalı'ədən sonra şayəd əməli olabiləcəkdir. Bundan daha əhəmmiyyətli hökümətimizin dünyaya tanıtdırılması məsələsidir. Bu xususda Milli Hökümət var qüvvəsilə çalışmaqdadır.

Biz moskovda təşkil olonan muttəfiq dövlətlərin vəzirləri şurasına müracıət edib Milli Hökümətimizin quruluşunu və Azərbaycan xalqının arzularını bəyan etdik. Azərbaycan məsələsinin həlli fəqət Azərbaycan xalqının haqqı olduğunu ümum dünyaya bildirdik və yenə də bu sahədə Milli Hökümət çalışmaqdadır. Bunlardan əlavə dövlət proqramında bir çox iqtisadi islahat irəli sürülmüşdür. Bu sahədə Tehran hökümətinin xainanə siyasəti nəticəsində böyük çətinliklərə rast gəlirik. Olən xain mə'murlar və onlardan daha xain olan bə'zi tacirlər vastəsilə Azərbaycanda olan nəqd pulun mühümm bir qisməti çəkilib Tehrana aparılmış, bazarı soymaq və Azərbaycanı təxliyə etmək qəsdilə ticarət mallarımızın əvəzsiz olaraq Tehrana çəkilib getəməsinin qabağı alındığı üçün bazarda müvvəqəti bir böhran daxı vucuda gəlmişdir. Bu işın dövlət işlərində təsiri vardır. Xalqda pul az olduğu üçün maliyatı toplamaq və ya dövlət ixtiyarında olan ticarət mallarını pula çevirmək asanlıqilə mümkün olmur. Bu isə dövlət bərənaməsinin ayrı qismətlərinin icrasına mane'ə törədir.

Bonunla belə dövlət bir tərəfdən nəqd pul təhiyyə etmək, ikinci tərəfdən ticarət yolları aramaq üçün ciddi tədbirlər görməkdedir. Hətta yeri gələrsə tüccar və malıklərin təqazasını əməli edib xarici ölkələrilə müstəqimən ticarətqərardadı bağlamağa qədər dövlət hazır olacaqdır. Biz çox gözəl bilirik ki, höküməti ələ almaqdan onu saxlamaq və bunların hamısından əlavə hökümət vasıtəsilə xalqı tərəqqı və tə'alayə sövq etmək daha müşküldür. İndi böyük fədayılık və böyük təşkilatçılıq iste'dadına daha artıq ehtiyac vardır. Indi böyük müşkülat dövlət idarələrini dolandırmaq üçün xibrə və bacarıqlı işçilər tapmaq məsələsidir.

Köhnə işçilər bizim məqsəd və məramımızı başa duşə bilmirlər. Onları bu niyaranlıq artıq qurudub fasıd etmişdir. Az fışar verdikdə başlarını itirib və qalırlar. Yeni işçilərin olən sayı çox azdır, sanıən onların əksəri idarə işlrilə aşına deyildirlər. Ona görə firqənin qarşısında duran ən mühümm məsələ inanılmış, savadlı işçi tərbiyət etmək məsələsidir. Bu vasitəilə fəqət dövlət idarələrində firqə rəhbərliyi tə'min olona bilər.

Dövlət əlimizə keçdikdən sonra yerlərdə çox iştibahlar olmuş, bə'zən firqə təşkilatı hökümət idarəsinin işini mənimsəməmişdir. Bonun isə işə artıq dərəcə ziyanı ola bilər. Bonun tezliklə qabağı alınmalıdır. Bə'zi yerlərdə fədailr firqə və hökümət işlərinə qarışıb öz başlarına işlər görürlər. Buna isə ciddən axır qoyulmalıdır. Firqə gərək xalqı intizama və qanunu ri'ayət etməyə adət versin. Əmniyyət və qanun olmayan bir ölkədə

azadlıq ola bilməz. Biz gərək xalqı qanun muqabılındə müsavi tutmaqla həqiqi qardaşlıq, doğru bərabərlik vucuda gətirək. Şəxsi imtiyaz, şəxsi boynuyoğunluqilə ciddi və amansız mübarızə aparılmalıdır. Firqə işləriilə dövlət işləri gərək bir - birindən ayrılsın. Həmçinin bir vizarətxananın işçisi başqa vizarətxananın işçisinin işinə qarışmasın.

## Maarif və mədəniyyət məsələsi

Gündəlik iş sabit edir ki, millət öz həqiqi hakimiyyətini əldə saxlamaq üçün savadlı olamalıdır. Keçmiş siyasətdən kifayət qədər bəhs olunmuş indi isə glecəkdən danışmaq lazım gəlir. Bizdə fərhəng işinə çox az əhəmiyyət verilir. Gecə kəlaslarında təhsil edənlərin sayı çox azdır. Hələ, mədrəsə qurtaranlarımızın çoxusu zindəganlıqda və idarə işlərində artıq dərəcədə zəifdirlər. Biz gərək cavanlarımızın tərbiyəsini iş və ehtiyac üzərində quraq. Bu yolda çox az iş görülmüşdür. Maarif vizarətı gərək gələn təhsil ilində öz proqramında əsaslı islahata yol versin. Milli darulfonun barəsində ciddi qədəmlər götürülmüşdür. Bu böyük arzu əgər əməli olarsa millətimizin üzünə tərəqqi yolları açılmış olacaqdır. Biz məxsusən darulfonunda pedaqoji şö'bəsinin təşkilinə əhəmiyyət veririk. Çünkü əsas müəllimlərdir. Müəllimsiz fərhəng tərəqqi edəbilməz. Fəllahət və tibb şö'bələrinin tə'sisi ehtiyacımızın təqazasıilə meydana çıxan məsələdir.

Iş çox, meydan vəsi', fəqət işçi və kadr istəyir ki, bu musa'id vəziətdən istifadə etsin. Firqə təşkilat məsələsiilə məşğul olduğu halda bu işə də ciddi əhəmiyyət verəməlidir. Hər bir sahədə işçi lazımdır. Işçisiz iş qabaqdan getmir.

## Firqə və dövlətin qabağında duran mühümm məsələlər

Firqə beş ayın müddətində böyük işlər görmüş, nəhayət, milli demokratik bir dövləti bu dövlətə dayaq olan tam mə'nasilə mü'asır bir millət yaratmışdır. Beş ay bundan ol Tehran murtəce mətbuatının və Fars mutə'sibblərinin icad etdikləri övham və xurafat bulodları arasında Azərbaycanlı üçün bu sadəlikilə millət və ya dövlət iddiasına duşmək asan işlərdən deyil idi. İndi artıq millətimizi subut edib dövlətimizi milli əsas üzərinde qurmuşuq. Get - gedə xalqımız və xaricilər bu adları eşitməyə adət etmişdir. Artıq Azərbaycan milli dövləti bir həqiqətdir. Tehran höküməti özünün cahilanə siyasəti vasitəsilə bizim işimizi asanlaşdırmışdır. Muttəfiq dövlətlərin qoşonları İranda olduğu müddətdə məclis intıxabatının tə'xiri, Fəruxun Azərbaycana böyük ixtiyaratilə tə'yin olunması pərdəni yırtdı. Fədailəri qəl' və qəm' etmək üçün qoşun göndərilməsi, məclisşövra və mətbuatda əleyhimizə işlədilən narəva sözlər bizə artıq dərəcədə kömək etdi. Bu vasitəilə xalqımız anladı ki, bu asanlıqilə ona azadlıq və muxtariyyət verilmiyəcəkdir. Ona görə özü öz başına çarə axtarıb milli dövləti vucuda gətirdi. Bu isə əlbəttə kafi deyildir. Gərək hökümət möhkəm qanun üzərinde əsaslansın. Biz məxsusən Məclis Müssisanda (milli konqrədə) hazırladığımız qanunəsası layıhəsini müzakirəyə qoymadıq. O vaxt fikir edirdik ki, şayəd Tehran irticai hökümeti gözlərini açıb həqiqəti görməklə bizim milli dövlətimizi təsdiq edəcəkdir. Indi isə onun xaric və daxildə gördüyü işləri

etdiyi təşəbbüslər aşkara çıxmışdır. O bizim millətimizi belə inkar etəmkdn utanmır. Belə bir dövlətilə ayrı cür rəftar etmək olmaz. Biz əlimizi əl ustə qoyub otura biləmərik. Başladığımız işi axıra aparıb milli dövlətimizin qürülüş əsasını tə'yin etəməli, xalqı hədəfə aparəmalıyıq. Bilatəklif qalmağın mə'nası yoxdur. Çox tez bir zamanda ikinci Müssislər məclisini də'vət edib ölkənin əsas qanunlarını təsvib etmək lazımdır. Bu xususda dövlətin və mclis millinin qərarı vardır. Qanunəsası layıhəsi tənzim etmək üçün böyük bir heyət intixab olunub işə başlamışdır. Bu qanun tam mə'nasilə demokratik əsaslar üzərinde yazılmalıdır. Axırıncı söz isə millətindir. Millət öz sözünü Məclis Müssisan vasitəsilə deyəcəkdir. Biləxərə «Azərbaycan Azərbaycanlılarındır!»şüarı gərək əməli olunsun, biz özgə millətin təht qeymumiyyətinə girəmyiəcəyik.Qoy bu şüarlar xalqımızın tarixində səbt edilsin. Dövlət və firqənin qabağında duran böyük vəzifə bu süarı həyata keçirməkdir. Millət özünün iste'dad və ləyaqətini göstərmiş, xalqın əksəriyyətini təşkil edən kəndli bu müqddəs arzuya yetişmək üçün silahını can kimi bağrına basıb saxlamışdır. Bundan sonra bizim qarşımızda fəlahət işlərini tənzim etmək, kəndliilə ərbab münasibatını düzgün yolona qoymaq, Azərbaycan düşmənlərinə mülhəqq olan ərbabların kəndlərini, həmçinin dövlət yerlərini kəndli arasında bölmək kimi böyük bir məsələ durur. Əməldə göründü, bu iş olduqca müşkül bir məsələdir. Kəndlilər arasında böyük ixtilaflar tövlid olabilər. Əldə kafi qədər mə'lumat yoxdur. Yeri bölüb kəndlinin ixtiyarına vermək üçün lazımı qədər muəxssis və xibrə işçi yoxdur. Hökümət tə'sis olan gündən fəlahət vəzirliyi bu işilə məşğuldur. Hənuz səhih və kamil bir layihə duzəltmək mümkün olmamışdır. Bu işdə yerli firqə təşkilatından ciddi kömək gözlənilir.

Əslən firqə təşkilatlarının iş usulu gərək dəyişilsin. Onların təbliğat mövzuları dövlətin məşğul olduğu islahatilə tətbiq edilsin. Artıq heyət hakimədən bəhs etmək dövrü keçmiş, istibdad hökümətinin cinaytlərini saymaq xalqı qane etməz. Ona əməli surətdə milli dövlətin yaxşı işlərini sayıb göstərməliyik. Qoy, xalq öz gündəlik həyatında səadətə tərəf getdiyini hiss etsin. Firqə gərək öz işlərində bu həqiqəti özünə məş'əl qərar versin.

Sonra ölkənin müdafı'əsi məsələsi meydana çıxır. Fədailər yoxarıda dediyim kimi böyük xidmət göstərdilər. Lakin onlarilə münəzzəm düşmənin qabağına çıxmaq olmaz, düşmən yatmamışdır. O, xarici imperyalist dövlətlərin köməyiilə bizim azadlığımızı məhv edib millətimizi aradan aparmağa hazırlanır. Biz bir an ğəflət edəbilmərik. Ona görə münəzzəm qoşun düzltməliyik. Bonun üçün firqə grək ciddi hazırlıq aparsın. Millətin bütün sağlam əfradı milli vəzifəsini əncam vermək üçün səfərbərliyə alınmalı, tam mə'nasilə müasir milli bir qoşun yaradılmalıdır. Firqənin qarşısında duran ən böyük məsələ bundan ibarətdir. Biz həmişə demişik, azadlığı verməzlər. Onu almaq lazımdır.

Bu işi biz görmüşük, lakin bu kafi deyildir. Alınan azadlığı saxlamaq və ondan lazımı istifadə etmək daha mühümmdür. İndi firqə buna hazırlanmalıdır. Bu isə ancaq milli qoşun təşkiliilə ola bilər.

Bunlardan əlavə firqə sıralarını möhkəmləndirib, onu yabançı unsürlərdən təmizləmək də artıq dərəcə əhəmiyyətli məsələdir. İndi firqəmiz dövlətə rəhbərlik edir. Onun üzvləri xalqın e'timadını qazanmaqla cami'ədə ad və şöhrət qazanırlar. Bu isə hər kəsi firqəyə soxulmağa təşviq edəbilər. Firqəyə soxulan xaiin ünsürlər oradan dövlət idarəsinə yol tapıb

**xainanə hərəkətləriilə xalqı dövlətdən uzaqlandırar, ona görə yerlərdə firqə təmizliyinə artıq dərəcədə diqqət etəmk lazımdır.**

**Bunların hamısından əlavə firqə təbliğatının qüvvətləndirilməsi lazımdır. Hər bir firqə üzü gərək firqəmizin tarixi və onun şüarları və qabağında duran vəzifələrilə dərindən aşına olsun və firqənin hədəf və məqsədini anlasın. Bu isə çox da asan bir məsələ deyildir. Hənuz mərkəzi komitə üzvləri arasında bizim dövlət tərəfindən müntəşir etdiyimiz rəsmi sənədləri oxuyub düşünə bilməyənlərimiz tapılabilər. Adi firqə üzvləri isə zənnimcə bu xususda çox dalı qalmışlar. Bu nüqsanı çox ciddi surətdə rəf' etmək lazımdır.**

**Qoy yerlərdə firqənin birinci bəyannaməsindən başlayıb ta bu günkü ümumu iclasların qərarlarına qədər yazıb müntəşir etdiyi sənədləri hər bir firqə üzvü oxuyub, anlayıb, onun ətrafında mə'lumat verəbilsin, bu, firqə içərisində böyük intibah, bəlkə inqilab yaradar. Bunu gərək etmək.**

**Görünür qabaqda böyük işlər, ağır məsələlər vardır. Bunları ancaq bilik, mə'lumat və firqə əfradının birliyi, səmimiyyəti sayəsində həll etmək ola bilər.**

**Bir də firqə gərək Azərbaycan xalqılə yanaşı, milli mübarızə aparan başqa milətlərilə birlik yaratsın. Bu sahədə Kurdlərilə qardaşlıq yaratmaq və onların e'timadını cəlb etmək ən ciddi vəzifələrdəndir. Bu xususda firqə üzvləri arasında meydana çıxan bə'zi narazılıqların qabağı alınmalıdır. Kurdlər kimi Ermənilər və Asurularilə firqə birlik yaratmağa çalışmalıdır.**

**Bu millətlər gərək Azərbaycanda tam mə'nasiilə azad yaşayıb öz milli dillərində milli işlərini idarə etsinlər.**

**Milli Hökümətimiz milli əsarətə yol verməyəcəkdir. Öz millətimizin azadlığını istədiyimiz kimi özgə millətlərin də azadlığına imkan verəməliyik.**

**(«Azərbaycan» şumarə 110 ikinci dövrə 1 şənbə 7 Bəhmən 1324- nəcü il)**

www.achiq.org

## S.C.Pişəvəri

# Maliyat barəsində

Biz maliyat barəsində çox tə'kid etəməliyik və bu mövzu indiyə kimi neçə dəfə təkərar olmuşdur.

Maliyatı biz ondan ötrü alırıq ki, maliyat vasitəsilə ölkəmizin ehtiyaclarını rəf' edək. Buna görə lazımdır ki, tezliklə maliyat cəm' olsun və bir yerdə təmərküz tapıb ölkəmizin lazımı məsrəflərinə yetişsin. Aqaye Həbibullahi dedilər ki, «Ajir» ruznaməsində indiyə kimi maliyat bərdəramdin əleyhinə çoxlu mqalələr yazılmışdır. Amma bücür deyildir. Biz oldən maliyat bərdramdin verilməyinə tərəfdarıq, amma doktor Milispo maliyatdan əlavə siyasi işlərə qarışırdı. Bizim azadlığımızı da məhdud etməyə təşəbbüs edirdi. Maliyat idarəsində olan narəva hərəktlərə əlbəttə biz həmişə muxalif olmuşuq. Biz «Ajir» ruznaməsinin olinci dövrəsində maliyat bərdramdi müdafiə etməklə bərabər Milisponun siyasi işləriilə mübarizə etmişik. Maliyat bərdramd qanunu zamanı cəngdə adilanə bir qanundur. Qeiriadi gəlir və mənfəətlərə də maliyat almaq gəlirdi. Müharibədən süi istifadə edib böyük pullar qazananlar bu adilanə maliyatdan boyun qaçırmaq üçün xalq içərisində fitnə və fisad tövlid etməyə çalışırlar.

Mən Tehranda bir nəfər tacirdən ləvazim təhrir alardım. Sonra gördüm o, ticarətxanasını bir neçə mağazaya təqsim edibdir ki, bu vasitəilə maliyat bərdramd verməsin.

Burada da bə’ziləri vardır ki, o cür edirlər və maliyat istəyəndə dad fəryad salırlar ki, verməsinlər. Amma maliyat yığılmasa işlər düzlməyəcəkdir. Biz ölkəmizi idarə edəbilmərik. Qoy cəng mövqeində xalqən qanını sorub milyonlarla qazananlar naməşru  gəlirlərindən biraz da xalqın rahatlığından ötrü,ölkələrinin abadlığından ötrü, maliyat versinlər, onlar minlərlcə adamların var yoxunu aparıblar. İndi də gərək adilanə surətdə maliyatlarını versinlər. Amma malyat alanda heçəksə gərək tövhin olmasın, biz qabaqkı mə’murlar kimi xalqilə pis rəftar etməyəcəyik. Biz maliyat yığmasaq ehtiyaclarımızı rəf' edə bilmərik, darulfonun duzəldə biləmərik, buna görə firqə gərək maliyat əleyhinə təbliğat aparanların qabağını alsın. Xalqa maliyatın verilməsi lüzumunu anlatsın.

Çoxları vardır ki, keçən dövrədə onlardan maliyat istəində hay - huy dad və fəryad salıb maliyat verməkdən boyun qaçırdırlar. Biz qabaqcadan maliyatların alınmağına ondan ötrü israr etmirdik ki, bilirdik bu maliyatları xalqdan aldıqdan sonra oğurluyurlar. O maliyat vasitəsilə xalqın ehtiyaclarını murtəfə' etmirlər.

Amma indi maliyat alırıq ki, xalqa darulfunun, yol, karxana, səhiyə və sayırə düzldək. Mümkündür maliyat tə’yin olunduqda maliyat yazanlar yaxşı iş görməmişlər. Vəli bonun ümumiyyətiı yoxdur. Zamanə cəng maliyatı çox qanunu bir əməliyyatdır.

Bə’ziləri milyonlarca pul qazanan mövqə'də minlərcə fəqir uşaqlar və yoxsul arvadlar gecələr səhrə kimi çörəkçi dükanlarının qabağında növbəyə dururdular. Minlərcə adamlar aclarından, bekarçılıqdan ölürdülər..... Gərək indi onlar o hədsiz ayidlərinin həqiqi və adilanə

**maliyatlarını versinlər və bizdə bu qanunu malyatları hətmi surətdə alacayıq... (*alqışlar*)**

***(Azərbaycan» şumarə 112 (ikinci dövrə) 3 şənbə 9 Bəhmən 1324-cü il)***

www.achiq.org

# Danışsəra salononda

s.c.Pişəvəri

Mən danışmaq qəsdiilə buraya gəlməmişdim. Vəli bacılarımızın və qızlarımızın burada göstərdikləri ləyaqət və yararlıq məni məcbur elədi ki, bu ehsasatdan təşəkkür eləiim, burada Milli Hökümətdən təşəkkür elədilər, mən deməliyəm ki, Milli Hökümət xalqımıxdan başqa bir şei deyildir. İndi ki, siz taaruf eləyib təşəkkür elədiz, mən də Milli Hökümət adına sizlərdən səmimiyyətlə təşəkkür edirəm. İndi hamı xanımlar və ağalar ehsas ediblər ki, bizim yolumuz səadətə gedir. Mən iki il bundan qabaq birgün burada bir cəşndə var idim, onda faruqultəhsillər cəşnində danışılan sözlr quru və tutıvar idi. Burada Azərbaycan dilində danışmağa icazə verilmirdi və o dılilə danışmaq bir eyb kimi nəzərə gəlirdi, onda mən çox kiçildim və sıxıldım. Amma indi mən görürəm ki, xoşbəxtanə bizim firqəmizin və fədakar arvadlarımızın zəhməti sayəsində o mövhüm pərdə və çürümüş zəncir və ənəkbut toru dağılıbdır. Bizim xanımlarımız nişan verdilər ki, bizim millətmiz mütərəqqi və istedadlı bir millətdir, həqiqətən bu neçə ayın içərisində millətin əxlaqı busbütün dəyişmişdir. Biz deyirik ki, xalqın qapılarını sındıranlar şayəd qorxu nəticəsində öz yerlərində oturmuşlar, bəs cibəgirənlər ki, qorxmurlar onlar nəyə yerlərində oturublar? Bu göstərir ki, xalqımız içərisində mə'nəvi bir inqilab və əxlaqı bir təhəvvül vucuda gəlmişdir. Mən bir nəfər xariciilə danışırdım o deyirdiki, mən qabaqca kəndliləri ağır yük altında əzilmiş kimi başaşağı və kədərli gördüm. Amma indi haman kəndlilər paltarları cırıq və köhnə olduğona baxmayaraq başlarını uca tutub özlərini müstəqil insan hesab edirlər. Buradan anlaşılır kı, millətimiz öz şəxsiyyətinə pei aparıbdır öz şəxsiyyətini anlamışdır, bu milləti artıq təhqirt etmək olmaz, Milli Hökümətimiz qısa zamantda çox cəsuranə işlər görmüşdür, bizim əvvəlinci müraciətnaməmiz beş ay bundan əvvəl müntəşir olmuşdu. Firqəmizdə çox az adamlar varaıdı ki, Azərbaycan dilinə bu gün xalqımızın göstərdiyi qədər rağib olsun, amma biz bu məsələni qəhrəmanlıqilə həll edib dilimizi əsarətdən xilas etdik. Bu da götürdüyümüz cəsuranə qədəmlərdən birisi də tamam sahəlrdə tam mə'nasılə xanımlara azadlıq və şirkət verməkdən ibarətdir. Bir dəfə ciddi təsmim tutub dedik: qoy onlar da seçgilərdə rə'y versinlər, intixabatda şirkət etsinlər, vəkil olsunlar və şayəd gələcəkdə onlardan vəzirimiz də olsun. Xanımlar da öz ləyaqətlərin göstərdilər. Təbrizdə xanımlarımızdan 4000 nəfərə yaxın rə'y verdilər. Bu vasıtəilə Azərbaycanlının layiq bir millət olduğu dünyaya isbat edildi.

Bizim xalqımız əsasən qəhrəman bir xalqdır. Əgər indi İran hököməti varsa onu iycad eləyən Azərbaycanın qızılbaş ordusu olmuşdur. Bu ölkəni beş altı şeyx Azrbaycan kəndlilərinin zoruilə yaratmışdır. Azərbaycan böyük bir qüdrətdir fəqət ona təkan vermək lazımdır. Bu təkanı demokrat firqəsi verdi. İndi İranın başqa yerlərində də biz böyük ehtiram qazanmışıq. Onlar öz ruznamələrində yazırlar: Qoy demokrat başçıları gəlib bizi də əsarətdən qurtarsınlar. Amma biz deyirik ki, yox, siz

özuzə nəcat verin biz də sizə kömək eləyəcəyik. Amma bizim sizə heç ehtiyacımız yoxdur. Siz bunu biləməlisiz ki, əgər bizim milli azadlığımızı tanımasaz da biz özümüz sizsiz yaşaya bilərik. Neçə ay bundan qabaq keçən hökümət qarnı yırtıq kazımlara dəstur verirdi ki, mədrəsələr qabağında dursun və çadırasız dolanan muəlimələrə və mühsillərə əziyyət eləsinlər, bizim hökümətimiz qarnı yırtıq kazımları mucazata yetirdi və Tehran mürtəce ruznamələri onları vətənpərəst adlandırdılar, indi bizim öz milli dövlətimizin sayəsində hərkəs azad bır surətdə yaşamaq imkanına malik olmuşdur. Biz özümüzü tamam dünyaya tanıtdırdıq, tamam dünyada bir radio yoxdu ki, gündə beş altı kələmə də Azərbaycan barəsində danışmasın. Bu adı biz ucalara qaldırmağa müvəffəq olmuşuq. Biz bu günlərdə böyük bir işə iqdam etmişik o da milli qoşun yaratmaq üçündur. Biz müharibə etmək istəmirik. Gördüz ki, bu böyüklükdə inqilabı qan tökəmədn yaratdıq, amma əgər bizim azadlığımızı ayaqlamaq istəsələr mən elə zənn edirəm ki,sizlər də bizilə bərabər ayağa durub və öz məllit və hakimiyyətizi difa etmək yolunda mübarizə edəcəksiz. (şiddətli, uzun sürən alqışlar

Mən təsdiq edirəm ki, maarifsiz bir millət yaşaya bilməz. Dünya bilik, maarif və fərhəng üstündə dolanır. Bizim ölkəmiz gərək öz əlimizədə ola ta eləyəbilək özgə millətlər kimi tərəqqi eləyk, buna görə gərək maliyat yığıla və mədrəsəlrə verilə. Bunların hamısı hökümətimiz öz əlimizədə olduğu surətdə əməli ola bilər. Əgər belə olmazsa özgə gələr bizim işlədiklərimizi və zəhmətimizin nəticəsini aparar, özünə park və apartman düzəldər.

Necə keçən dövrə azad yaşamağa, bir yerə yığışmağa, məclis qurmağa imkan vermirdilər yenə də məscid də əzadarlığa icazə verməzlər, biz gərək höküməti saxlayaqu meydan verək ki, maarif və sayir sahələrdə millət öz iste’dadını göstərsin, ta hamı onun məzahirindən istifadə edəbilsin. İndi bizim darulfununun məsələsi mühüm bir məsələdir. Gərək tə’sis edək və fəqət bu vasitəilədir ki, bizim ləyaqətli mu'limlərimiz, mühəndislərimiz doktorlarımız ola bilər. Bunu, Millihökümətimiz öz əlimizədə olsa edəbiləcəyik, bizim Milli Hökümətimiz xalqdan ayrı deyil, göydən düşmə deyil, öz atalarımız və qardaşlarımızdı. İndi hər yerin qapısı hamının üzünə açıqdır. Bizim Azərbaycanımız çox sərvətli və qəni ölkədir. Onun mə’dənləri və fəllahət iste’dadı və tərəqqi etməyə böyük imkanları var, İndiyəqdər bu imkanlardan istifadə etməyə yol verməmişlər. Qoy bundan sonra millətimiz sərvətlı olsun. Biz gərək teatra əhəmiyyət verək. Ona görə də Milli Hökümət tə’sis olmaq haman teatrı təqviyət eləməyə başladı. İndi Azərbaycanın teatrını tövsiəvermək üçün hökümət yaxşı büdcə ayırmışdır. Diri millətlər müharibənin ən çətin vaxtlərində sevinmək və şad olmaqdan sərfnzər etmədilər. Biz isə həmişə ağlamışıq. Qoy bundan sonra ağlamaq yerinə xalqın üzü gülsün. İndi millətimiz birleşib. Görün beş ayın içərisində Təbrizdə heç böyük hadisə üz verməmişdir, bu qorxudan deyil, bəlkə, səmimiyyətdən və imandandır. Bizim müəllimlərimiz və maarifçilərimiz gərək kiçik və mə’sum balalarımıza vətən məhəbbəti və azadlıq eşqini təzrıq etsinlər ta tərqqi eləyək. Biz, buna əminik. Siz var qüvvənizilə çalışın və dövlət də var qüvvəsiilə sizə imkan verəcəkdir. (şiddətli alqışlar)

**(Azərbaycan» şumarə 124 ikinci dövrə 3 şənbə 23 Bəhmən 1324- nəcü il)**